

**Nazim Əliyev, NABT-ın təsisçisi və direktoru**

2016-ci ildən etibarən Nazim Əliyev Biznes Təlimləri (NABT) adı ilə fərdi sahibkar kimi fəaliyyət göstərir və bu müddət ərzində o FİNCA Azərbaycan, Demir Bank. Rabitə Bank, FinDev Azerbaijan, Gilan Agriculture, Azmikroivest, Access Bank, AMFA və sair yerli və benəlxalq qrumların 1000-dən çox orta rəhbər işçi heyətinə liderlik, üstün danışıqların aparılması, satış, müştəri təcrübəsi və digər mövzularda təlim proqramları ilə təmin etmişdir.

2010-2016-cı illərdə o, Avrasiya regionu ölkələrində FINCA-nın törəmə bank və mikromaliyyə qrumlarının İdarə Etmə Komandasının bir üzvü olaraq Təlim və İnkişaf şöbələrinə rəhbərlik etmişdir. Həmçinin Nazim FINCA rəhəbər və mencerlərının hazırlığını təmin edən FİNCA İnkişaf Akademyasının qurucusudur və həmin illərdə bu Akademiyaya rəhbərlik etmişdir.

Nazim Əliyev Azərbaycanda Mikromaliyyənin Pioneri olumuşdur. 1996-2001-ci illər ərzində Azərbaycanda yaradılmış micromaliyyə qurumlarından ən azı beşinin o cümlədən FinDev, Azerstar, Azercredit, CredAgro, və FİNCA Azerbaycanın inkişafında bir başa rolu olmuş və daha sonra Azərbaycan Mikromaliyyə Assosiasiyasının ilk sədri kimi fəaliyyət göstərmişdir. Onun Azərbaycanda təməl qurucusu olduğu və hazırda fəaliyyət göstərən təşkilatlar FinDev Azərbaycan, FİNCA Azerbaijan və Azərbaycan Mikromaliyyə Assosiasiyasını (AMFA)-nı göstərmək olar.

2001-2010-cu illərdə Ölkə Direktoru Müavini və sonra Korporativ İnsan Resursları Direktoru kimi FİNCA Azerbaycan kredit əməliyyatlarına rəhbərlik etmiş və onun inkişaf etdirdiyi kredit məhsulları və rəhbərlik strukturu FİNCA Azerbaycan-ı 350 min ABŞ dolları portfeli olan xırda bir layihədən 2016-cı ildə 250 milyon dollar portfeli olan ümum milli miqyaslı və Azərbaycanda ən iri BOKT olmasına qədər genişləndirmişdir.

Bununla yanaşı Nazim zəngin beynəlxalq təcrübəyə malikdir. Beynəlxalq təşkilatların işçisi kimi MDB, Yaxın Şərq, Şərqi Avropa və Afrika regionlarının 13 ölkəsində banklar və mikromaliyyə qurumlarının inkişafına aid layihələrə rəhbərlik etmişdir.

Nazim Böyük Britaniya Cheveninq Fondunun Mükafatçısıdır. O, Mançester Universitetində İnsan Resurslarının İnkişafı və İdarə edilməsi üzrə Aspiranturasını, Azərbaycan Dövlət İqtisad İnstitutunun isə İqtisadiyyat fakulətsini bitirmişdir.